DÜNYA

# Rusiyada ilk 'LGBT ekstremizmi' işi üzrə hökm çıxarıldı

2 dəqiqə öncə




LGBT icmasının "X Sankt-Peterburq Praydı" aksiyası. 2019

Orenburq məhkəməsi "Pose" barının sahibini, inzibatçısını və art-direktorunu ekstremist təşkilatın fəaliyyətini təşkil etməkdə və bu fəaliyyətdə iştirakda təqsirli bilib. Məlumatı "Ostorojno, novosti" Telegram kanalı yayıb.

Məhkəmə ən ağır cəzanı – 7 il azadlıqdan məhrumetməni – barın 37 yaşlı sahibi **Vyaçeslav Xasanova** verib. Klubun 30 yaşlı inzibatçısı **Diana Kamilyanova** 6 il 3 ay, 23 yaşlı art-direktor **Aleksandr Klimov** isə 2 il 3 ay müddətinə ümumi rejimli koloniyada cəza çəkəcək.

İstintaqın versiyasına görə, təqsirləndirilən şəxslər qeyri-ənənəvi cinsi oriyentasiyaya malik olaraq əvvəlcədən razılaşdırılmış qrup halında barın işini təşkil ediblər. İttihama

əsasən, Kamilyanova qeyri-ənənəvi cinsi münasibətləri təbliğ edən şouların foto və videolarını çəkdirib, Klimov isə həm bar ziyarətçiləri arasında, həm də Telegram platformasında bu münasibətlərin təbliğatını aparıb.

Hökumətyönlü fəalların şikayətlərindən sonra hüquq-mühafizə orqanları "Pose" klubuna dəfələrlə basqın edib. Cinayət işi başlamazdan əvvəlki sonuncu reyd 12 mart 2024-cü ildə keçirilib və elə həmin gün klub qonaqlarının görüntüləri "Z-kanalları"nda yayılıb.

Hər üç şəxs 2024-cü ilin martında həbs olunub, sonradan isə "Rosfinmonitorinq" onları rəsmi "terrorçu və ekstremistlər" siyahısına salıb.


## Buna da bax:

'Əvəzin qətlindən sonra biz də qorxuruq' - LGBT fərdləri narahatdır

Gürcüstan prezidenti LGBT hüquqlarını məhdudlaşdıran qanunları imzalamayıb

Qazaxıstan prezidenti 'LGBT təbliğatı'nı qadağan edən qanunu imzalayıb


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur